# Ermənistanın "sülh kəsişməsi" manipulyasiyası

## Azərbaycanın iştirakı olmadan layihənin heç bir əhəmiyyəti yoxdur

"Zəngəzur dəhlizi Azərbaycan üçün sadəcə bir nəqliyyat layihəsi deyil, həm də tarixi, iqtisadi və siyasi baxımdan mühüm strateji məsələdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu dəhliz Azərbaycanın təşəbbüsü ilə beynəlxalq gündəmə daxil edilib və dünya səviyyəsində artıq qəbul olunmuş bir termindir".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, bu dəhliz Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası arasında birbaşa nəqliyyat əlaqəsinin yaradılmasını nəzərdə tutur. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistan üzərinə bu bağlantını təmin etmək öhdəliyi götürüb, lakin dörd ildən çoxdur ki, müxtəlif bəhanələrlə prosesi ləngidir və qeyri-konstruktiv mövqe sərgiləyir. "Azərbaycan buna cavab olaraq, İran İslam Respublikası ilə alternativ marşrutlar üzərində razılaşma əldə edib və Ermənistanı "baypas" edəcək avtomobil körpüsünün tikintisini həyata keçirir. Eyni zamanda Gürcüstan və Türkiyə üzərindən də alternativ yolların inkişafı nəzərdən keçirilir. Bu isə Ermənistanın bölgədə tranzit ölkəyə çevrilmək arzularının puça çıxacağını göstərir. Ermənistan "sülh kəsişməsi" adlı bir layihəni irəli sürərək diqqəti yayındırmağa çalışır. Lakin bu layihənin həyata keçməsi üçün Azərbaycanın razılığı vacibdir, çünki ölkəmizin iştirakı olmadan bu layihənin heç bir əhəmiyyəti yoxdur. Ermənistanın bu təşəbbüsü sadəcə beynəlxalq ictimaiyyəti çaşdırmaq və manipulyasiya cəhdi kimi qiymətləndirilə bilər", - deyə deputat əlavə edib.

P.Vəliyeva xatırladıb ki, Prezident İlham Əliyev Qərbi Zəngəzurun 1920-ci ildə SSRİ tərəfindən Azərbaycanın əlindən alınmasını və bunun xalqımıza qarşı tarixi cinayətlər silsiləsinin bir hissəsi olduğunu vurğulayıb: "Dövlət başçısı eyni zamanda ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazilərinə köçürülməsini, Qarabağ xanının öldürülməsini, Xocalı soyqırımını və 20 Yanvar faciəsini xatırladaraq, Azərbaycanın tarixi ədalətin bərpası üçün mübarizəsini davam etdirəcəyini bildirdi. Azərbaycan xalqı tarixboyu çoxsaylı haqsızlıqlarla üzləşib, lakin mübarizəsini davam etdirərək müstəqilliyini bərpa edib və ərazi bütövlüyünü təmin edib. Prezident İlham Əliyevin vurğuladığı bu tarixi hadisələr Azərbaycanın keçmişdən dərs çıxararaq gələcəyini daha güclü qurmaq əzmini nümayiş etdirir. Azərbaycanın əsas məqsədi tarixi ədalətin bərpası, ərazi bütövlüyünün qorunması və xalqın suverenliyinin təmin edilməsidir".

Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu və burada əsrlər boyu azərbaycanlıların yaşadığını vurğulayan deputat diqqətə çatdırıb ki, 1920-ci ilin noyabrında sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayıraraq Ermənistana verib. Bunun nəticəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsi kəsilib. Azərbaycanlılar Zəngəzurdan zorla qovulub və ermənilərin burada məskunlaşması üçün şərait yaradılıb. Bölgədə etnik təmizləmə aparılaraq Qərbi Azərbaycan torpaqları azərbaycanlılardan təmizlənib. XX əsr boyu burada yaşayan azərbaycanlılar dəfələrlə etnik təmizləməyə məruz qalıb və nəhayət, 1988-1990-cı illərdə tamamilə qovulublar. Qərbi Azərbaycanda baş verən deportasiyalar nəticəsində bu ərazidə bir nəfər belə azərbaycanlı qalmayıb və ermənilər buranı tam nəzarətə götürüblər. Bu həm də Qərbi Azərbaycanda azərbaycanlıların yaşamaq hüququnun tapdalanması demək idi.

P.Vəliyeva qeyd edib ki, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bölgənin iqtisadi inkişafı və geosiyasi balansın dəyişməsi üçün mühüm layihədir: "Ermənistan öz öhdəliklərini yerinə yetirməli və Azərbaycana maneəsiz keçid verməlidir. Azərbaycan bu dəhlizi reallaşdırmaq üçün siyasi, diplomatik və iqtisadi vasitələrlə mübarizəsini davam etdirəcək".

Siyasətçi sonda vurğulayıb ki, bu layihənin reallaşması təkcə Azərbaycanın deyil, bütün regionun logistika və ticarət imkanlarını artıracaq, iqtisadi inteqrasiyanı sürətləndirəcək və yeni geosiyasi reallıq yaradacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




Azərbaycan.- 2025.-31 yanvar (№21).- S.8.